Heydər Əliyev-90

# Heydər Əliyev və müstəqil, demokratik Azərbaycanda dövlət quruculuğu

*«Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun qorunub saxlanılması, daimi, əbədi olması bundan da çətindir».*

**Heydər Əliyev.**



Qafqaz regionunda Azərbaycan tarixən müxtəlif dövlətlərin maraq obyekti olmuşdur və indinin özündə də geosiyasi mövqeyinə görə mühüm əhəmiyyət kəsb edən bir ölkə kimi tanınmaqdadır. Ölkəmizin zəngin sərvətlərinə sahib olmaq tarix boyu bir çox dövlətlərin əsas məqsədlərindən olmuşdur. Təəssüf ki, müxtəlif dövrlərdə ictimai-siyasi və tarixi proseslər bu istəyin reallaşmasına, Azərbaycanın dəfələrlə işğala məruz qalmasına imkan yaradıb. Torpağımız dünyanın inkişaf etmiş güc dövlətlərinin çəkişmə meydanına çevrilib və xalqımız böyük faciələrə məruz qalıb.

Ötən əsrin əvvəllərində-1918-ci ildə azadlıq və müstəqillik uğrunda mübarizədə xalq qalib gəlsə də, Azərbaycan Xalq Cümhuriyyəti möhkəmlənə bilmədi, 23 aydan sonra süquta uğradı. Şərqin ilk demokratik dövləti devrilsə də, ötən əsrin sonunda—1991-ci il oktyabr ayının 18-də çətinliklər, tökülən qanlar və qurbanlar hesabına dövlət müstəqilliyi yenidən bərpa olundu.

Bu il müstəqilliyimizin yenidən bərpasının 22-ci ili tamam olur. Bu illər ərzində demokratik, hüquqi və dünyəvi dövlətin qurulması xalqımızın tarixi nailiyyətidir. Ölkə Prezidenti İlham Əliyevin 21 yanvar 2011-ci il tarixli «Azərbaycan Respublikasında müstəqilliyin bərpasının 20-ci ildönümü haqqında» Sərəncamında ölkəmizin ötən dövr ərzində müxtəlif sahələrdə qazandığı uğurlar geniş təhlil olunur. Bu sərəncam bir daha Azərbaycanın dövlət müstəqilliyinin bərpasının iyirmi illik yubileyinin müstəsna əhəmiyyət daşıyan ictimai-siyasi hadisə olduğunu təsdiqləyir, müstəqillik illərində Azərbaycanın keçdiyi zəngin inkişaf yolunda qazandığı parlaq nailiyyətlərin təbliğini təmin etmək məqsədi daşıyır.

Sovetlər ittifaqının dağılması ilə müstəqilliyini yenidən əldə edən Azərbaycan Respublikası ilk dövrlərdə (1991—1993-cü illər) ölkədə mövcud olan gərgin sosial-iqtisadi və ictimai-siyasi vəziyyətlə, bütün ölkəni bürümüş siyasi və iqtisadi böhranla qarşılaşmışdı. Səriştəsiz rəhbərlik nəticəsində dövlət idarəetmə orqanları vəzifələrinin öhdəsindən açıq-aşkar gələ bilmir, çox vaxt yeni iqtisadi və siyasi şəraitdə öz funksiyalarını yerinə yetirə bilmirdilər. Bunun başlıca səbəbləri dövlət aparatında işləyənlərin fəaliyyətlərini sürətlə dəyişən xarici mühitə və cəmiyyətin tələbatlarına uyğunlaşdıra bilməmələri, qərar qəbulu mexanizmlərinin səmərəsizliyi və peşəkar dövlət qulluqçularının olmaması idi.

Eyni zamanda, Rusiyanın köməyi ilə Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi dövlət böhranının daha da dərinləşməsinə və son həddə çatmasına səbəb olmuş, dövlət idarəetmə orqanlarının iflic vəziyyətinə düşməsinə və bütövlükdə dövlətin idarə olunmasının və dövlət müstəqilliyinin itirilməsi təhlükəsinin reallaşmasına gətirib çıxarmışdı. Ölkədə xaos, özbaşınalıq, anarxiya baş alıb gedirdi. Belə bir zamanda, belə bir məkanda ulu tanrının qüdrəti və xalqın iradəsi ilə ulu öndər Heydər Əliyev dünyanın siyasi arenasında yenidən parladı və Azərbaycanda hakimiyyətə yenidən qayıtması ilə xalqı düşdüyü bəlalardan xilas etdi. Məhz onun rəhbərliyi ilə 1994—1995-ci illərdə iqtisadi böhranın dağıdıcı təsirlərinin qarşısı alındı, respublikada ictimai-siyasi sabitlik yaradıldı, siyasi, iqtisadi və sosial islahatların, hərbi quruculuq işlərinin, cəmiyyətin demokratikləşdirilməsinə mane olan amillərə qarşı radikal tədbirlərin görülməsinə başlanıldı. Eyni zamanda, demokratik institutların yaradılması, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artırılması istiqamətində mühüm addımlar atıldı, «Əsrin müqaviləsi»nin imzalanması və xarici investisiyaların Azərbaycana cəlb edilməsi ilə ölkə iqtisadiyyatının inkişaf prosesi sürətləndi. Qanunvericilik sisteminin təkmilləşdirilməsində 12 noyabr 1995-ci ildə ümumxalq referendumu yolu ilə qəbul edilmiş Konstitusiyanın əhəmiyyəti xüsusilə böyük oldu. Azərbaycan Respublikası Konstitusiyasını müsbət cəhətdən xarakterizə edən əsas xüsusiyyətlər, insan hüquq və azadlıqlarına geniş yer verilməsi dövlət hakimiyyətinin qurulmasının əsası kimi hakimiyyətin bölünməsi (qanunverici, icra və məhkəmə hakimiyyəti) konsepsiyasını və yerli özünüidarə anlayışını mənimsəmiş olmasıdır. Xüsusən, insan hüquq və azadlıqlarının qorunması dövlət siyasətinin əsas tərkib hissələrindəndir. Artıq Azərbaycanda insan hüquqlarının qorunması üzrə işlək mexanizm mövcuddur. On minlərlə vətəndaşa şamil edilən əfv fərmanları, amnistiya, aktları beynəlxalq birlik tərəfindən və dövlətimizin demokratik inkişaf yolunda atdığı addım kimi dəyərləndirilir. Vətəndaşların hüquq və azadlıqlarının qorunmasında, qanunun aliliyinin təmin olunmasında məhkəmələrin mühüm rol oynadığı nəzərə alınaraq məhkəmə-hüquq sistemində köklü islahatlar həyata keçirilib. Bütün bu sadalananlar Azərbaycanın son 22 ildə qeyd olunan istiqamətdə qazandığı uğurların bir hissəsidir.

Bugünkü nailiyyətlər ulu öndər Heydər Əliyevin 1993—2003-cü illərdə «Demokratiya bizim strateji kursumuzun əsas mahiyyətidir. Heç bir qüvvə bizi bu yoldan döndərə bilməz» bəyanatı sivil, hüquqi dövlət quruculuğu yolunda atdığı addımların davamıdır.

Bu illərin ən böyük nəticələrindən biri ondan ibarət oldu ki, yaradılmış sabit siyasi durum Azərbaycanın gələcək milli inkişaf strategiyasını müəyyənləşdirməyə, ölkədə demokratik, hüquqi dövlət quruculuğu və səmərəli dövlət idarəetmə sisteminin formalaşdırılması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsinə geniş imkanlar yaratdı. 1996—1998-ci illərdə Azərbaycanda iqtisadi islahatların, dövlətin iqtisadi siyasətinin aparıcı istiqamətləri müəyyən edilməklə yanaşı, islahatların hüquqi bazası daha da genişləndirildi. Bu siyasətin reallaşdırılması nəticəsində həmin illərdə bazar infrastrukturunun əksər sahələri inkişaf etdirilmiş, iqtisadiyyatın liberallaşdırılması, özəlləşdirmə, mülkiyyət münasibətlərinin təkmilləşdirilməsi ilə əlaqədar əsas qanunlar qəbul edilmiş, bir sıra əməli tədbirlər həyata keçirilmişdir. 1995—1998-ci illərdə hökumətin üç müxtəlif iqtisadi inkişaf proqramı işlənib hazırlanmış, iqtisadi artıma və struktur dəyişikliklərinə nail olmaq üçün islahatlara başlanılmışdır. Bu proqramların reallaşdırılması islahatların strateji kursunun düzgün müəyyənləşdirilməsi və ölkənin iqtisadi potensialının gücləndirilməsi ilə nəticələnmişdir.

Ölkədə özəl sektorun inkişafının stimullaşdırılmasına yönəlmiş çoxsaylı tədbirlər həyata keçirilmiş, kiçik və orta sahibkarlığın inkişafına yardım məqsədi ilə, Azərbaycan Respublikasının Prezidenti yanında Sahibkarlar Şurası, Sahibkarlığa Kömək Milli Fondu yaradılmış, iqtisadiyyatda aparılan struktur islahatları, sahibkarlığın inkişafını və sağlam rəqabət mühitinin formalaşdırılmasını sürətləndirmək, iqtisadiyyata investisiyalar cəlb etmək yolu ilə onun səmərəliliyinin artırılmasına nail olmaq məqsədi ilə müxtəlif qanunlar, fərman və sərəncamlar, dövlət proqramları qəbul edilmişdir.

2003-cü il oktyabr ayının 15-də keçirilən Prezident seçkilərində İlham Əliyev xalqın səsini qazanaraq inamlı qələbə çaldı və Azərbaycan Respublikasının Prezidenti seçildi.

Prezidentlik fəaliyyətinə başlayandan cəmi 4 ay sonra 11 fevral 2004-cü il tarixdə «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004—2008-ci illər)» haqqında fərman imzaladı. Bu fərman birinci növbədə Heydər Əliyev iqtisadi strategiyasına, elmi araşdırmalara, zəngin dünya təcrübəsinə əsaslanırdı və ilk beşillik nəticələrini verdi. Fərmanın icrası bütün Respublikada olduğu kimi, Qəbələdə də öz əksini tapdı.

İlk öncə şəhərin mərkəzi meydanı genişləndirildi. Burada olan köhnə, yararsız, primitiv binalar söküldü, yerində yeni, yaraşıqlı park salındı. Parka Heydər Əliyevin adı verildi. Mərkəzi küçələr genişləndirildi, yenidən quruldu. Rayonda ilk tikinti materialları zavodları (Dəmiraparan çayında qum-çınqıl zavodu, asfalt zavodu, kərpic zavodu, dəmir-beton zavod), Zarağan kəndində yeyinti məhsulları zavodları tikilib istifadəyə verildi. Bu zavodların arasında hazırda xüsusi yer tutan və dünyanın 30 ölkəsinə məhsulunu ixrac edən, Cənubi Qafqazda analoqu olmayan meyvə-konserv zavodu və digər zavodlar bugün Qəbələdə fəaliyyət göstərirlər.

14 aprel 2009-cu il tarixdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları 2008-ci ildə icrası uğurla başa çatdırılan birinci Dövlət Proqramının davamı olan ikinci «Azərbaycan Respublikası regionlarının 2009—2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında fərman imzalamışdır. Artıq yeni Proqramın icrasının sonuncu ilidir. Tədbirlər planında Şəki—Zaqatala iqtisadi rayonuna daxil olan Qəbələ rayonu üzrə nəzərdə tutulan tədbirlərin bəziləri başa çatdırılmış, digərlərində işlər davam etdirilir.

Bu gün Azərbaycan demokratiyasının digər ölkələrə nümunə göstərilməsi ölkədə aparılan uğurlu iqtisadi və demokratik islahatların nəticəsidir. Azərbaycan dünya dövlətlərinin birləşdiyi BMT, AŞ, ATƏT kimi nüfuzlu təşkilatlarda layiqincə təmsil olunur. Bu təşkilatlara daxil olmağı məqsədyönlü siyasət və düşünülmüş addım kimi dəyərləndirən Prezident İlham Əliyevin qeyd etdiyi kimi, məqsəd Avropanın ən inkişaf etmiş ölkələrində mövcud olan müsbət təcrübənin Azərbaycanda tətbiqini sürətləndirmək, bəşəri dəyərlərdən faydalanmaqdır.

Ümummilli liderimizin vəsiyyətlərinə hörmətlə yanaşan xalqımız onun ideyalarının reallaşmasında siyasi yolunun davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının çoxşaxəli fəaliyyətini yüksək qiymətləndirir. Buna görə də xalqımız Prezident İlham Əliyevin ətrafında sıx birləşmişdir. Təməlləri Heydər Əliyev kimi qüdrətli siyasətçi tərəfindən qoyulmuş müstəqil, suveren Azərbaycan onun davamçısının rəhbərliyi altında dünyanın sivil ölkələri sırasında daha yüksək uğurlarla tərəqqi edir, xalqımızın həyat səviyyəsi durmadan yaxşılaşır. Azərbaycan xalqı, o cümlədən qəbələlilər cənab Prezidentə arxa durur və ona dəstək verirlər.

**Oqtay MƏMMƏDOV.**